**Siyasi Biliklərin Əsasları**
"İNAM" Plüralizm Mərkəzi,
*Layihənin Rəhbəri*: *Vahid Pərviz*
*Elmi Redaktor: Rasim Musabəyov*

# 06. Qeyri-Zorakı Mübarizənin Nəzəriyyəsi və Taktikası (1998)

*Niyazi Mehdi, Hikmət Hacızadə*

*İçindəkilər:*

Zor fəlsəfəsi, zor siyasəti (yığcam mənzərə)
Zordan üz döndərənlər haradan çıxdı
Zorsuz müqavimət hərəkatı
Zorsuz müqavimət aksiyaları, hərəkatları Hindistandan qıraqda
Zorsuz, dinc müqavimət aksiyalarının formaları, simvolları

## ZOR FƏLSƏFƏSİ, ZOR SİYASƏTİ (YIĞCAM MƏNZƏRƏ)

Mülkü cəmiyyət (- *cəmiyyətdə qeyri siyasi və qeyri kommersiya əlaqələrin toplusu*) demokratiyanın çaxdankı «ixtirasıdır». Ancaq qəribə bir məsələ! İnkişaf etmiş Qərb demokratiyası mülkü cəmiyyətinin sayəsində gəlişsə də xeyli zaman belə cəmiyyət məsələsini adi, trivial həqiqət sayıb unutqanlıqda saxlayırdı. Yalnız XX yüzilin sonunda nəzəri araşdırmalar yenidən mülkü cəmiyyəti ideyasına qayıtdı. Özü də bu ideyanın, fəlsəfəsinin belə fəallaşmasına səbəb heç də gəlişmiş demokratiyalar olmadı. Səbəb 80-ci illərdə Mərkəzi və Şərqi Avropada baş vermiş demokratlaşma prosesi oldu. Bu illərdə Adam Mixnik və Leşek Kolakovski kimi dissident intellektuallar totalitar dövlət modelinə alternativ cəmiyyət tipini axtarıb ortaya qoymaq istəyəndə istəklərinə mülkü cəmiyyət ideyasında cavab tapdılar. Kolakovski sosialist düşərgəsi haqqında yazdı: burada mülkü cəmiyyəti ilə dövlət arasındakı fərq tam itib, *dövlət insanı udub!*

Mülkü cəmiyyət insanlara hakimiyyətin əli çatmayan, hakimiyyətdən qıraq məkandır və onlar bu məkanda bir-biri ilə elə əməkdaşlıq əlaqələrinə girirlər ki, əməkdaşlıq birliyində qeyri siyasi yollarla, könüllü, diktəsiz öz gündəlik problemlərini həll etsinlər. Totalitar dövlət isə ýnəinki siyasi eyni zamanda mülkü işləri də nəzarət altında saxlayır və mülki cəmiyyəti mümkün qədər sıxışdırır.

Mülkü cəmiyyətin keyfiyyətlərindən biri də budur ki o hakimiyyətin özbaşınalığından, qanunsuz diktatından və ya hakimiyyətin insanı alçaldan qanunlarından özünü qorumağa bacarır. Bu dediyimizlə bağlı Birləşmiş Ştatlarda zəncilərin vətəndaş haqları uğrunda hərəkatını və onun lideri, terrorun qurbanı olmuş Martin Lüter Kinqi, SSRİ-də dəlixanalara, türmələrə salınmış yazıçı Andrey Sinyavski kimi dissidentləri yada salaq. SSRİ-dəki haqqoruyucu fədailər sırasında görkəmli yeri general Aleksey Qriqorenko tutur. O, Krım tatarlarının hüquqlarını qorumaq uğrunda mübarizəsinə görə olmazın məşəqqətlərini çəkmiş, ancaq yenə də mübarizəsindən dönməmişdi.

əski dövlət sistemi, toplum tipi asanlıqla yerini başqasına vermir. Yeniliyə qarşı zor işlədir. «Hakimiyyətin güc strukturları» deyirik. Hakimiyyətin ona görə güc strukturları var ki, özünü saxlamaq üçün ona güc və güclü olmaq gərəkdir. İngilislər «power» sözünü həm hakimiyyət, həm də güc anlamında işlədirlər. Bizim işlətdiyimiz ərəb sözü «hakimiyyət» hökm vermək, buyuruq, tapşırıq vermək situasiyası ilə bağlıdır («hökmlü adamdır» deyəndə biz adamın gücünü də nəzərdə tuturuq). Azərbaycan türkcəsində «buyuruq» sözündən də göründüyü kimi buyuruq o kəsdən gələ bilər ki, sözünün keçməsinə gücü var. Zəiflər yalnız buyuruq qulu olurlar. Bəs indi işlək olan «iqtidar» sözü? Aydın olur ki, bu söz də ərəbcə gücü bildirir.

Hakimiyyətin gücünə görədir ki, tarix boyu ona qarşı çıxanlar gücün dürlü növlərindən istifadə ediblər: Spartak qiyamı, Brutun Sezara xəncər vurması, Azərbaycanda qaçaqçılıq hərəkatı hamısı silahın, gücün, igidliyin ayrı-ayrı formalarından istifadə ediblər.

İnsan haqları və demokratiya uğrunda Fransa İnqilabını yapanlar silahlı gücdən istifadə etmişdilər. Bu Devirimin bir formulasını yakobinçilər vermişdi: «Mənə qardaş ol, yoxsa axırına çıxacam». Bu formula inqilabçıların terrorizminə guya ki insani arqument vermişdi.

İnqilabın «əlifbası» hakimiyyətin gücünə qarşı daha üstün, daha yaxşı təşkil olunmuş gücü çıxarmaqdır. Fransız inqilabçıları da bu «əlifbaya» uyğun hərəkət etmişdilər. Quzey Amerikada Britaniyadan bağımsızlaşma uğrunda ayağa qalxanlar da Böyük Britaniyanın gücünü yenmək üçün silaha əl atmışdılar. Marksizm 19-cu yüz ildə Kapitalizmi devirib, «yeni dünyanı» yaratmaq üçün proletariatın zorunu, gücünü toplamağın, təşkil etməyin incə, ağıllı fəndlərini işləyib hazırlamışdı. Bolşevizm isə bu haqda «inqilab nəzəriyyəsi» deyilən bir sistemi də düzüb qoşmuşdu.

Azərbaycanda işlədilən «pazı pazla çıxararlar» deyimi böyük dünyaya tanış olmasa da XX yüziləcən böyük dünyada hakimiyyətə qarşı mücadiləni hamı həmin deyimin prinsipində anlamışdı. 19-cu yüzildə hakimiyyətin zorunu zorla çıxarmaq üçün ən müxtəlif «texnikalar» tapılmışdı. Marksizmin zor «texnikasını» Azərbaycanda sovet təhsili almış adamlar nisbətən yaxşı bilirlər.

Ancaq ötən yüzildə bizim az bildiyimiz başqa bir anti-iqtidar zor texnikası da olmuşdu. Onun müəllifi Marksın tanınmış rəqibi Bakunin idi.

Bakuninin anarxizm təliminə görə toplumda olan bütün sosial institutları aradan götürmək lazım idi ki, cəmiyyət dəyişsin. Bunun üçün isə zorakı devirim gərək idi. Yalnız zorla devirəndən sonra azad və barışqan, dinc toplum qurmaq olar. Göründüyü kimi, Bakuninin barış dünyasını xoşbəxtlik, ideal sayırdı və hesab edirdi ki, ona çatmaq üçün yolu kəsən cəmiyyəti zor gücünə dəyişmək gərəkdir.

Anarxizmdə Prudonçuluq da vardı. Prudon fərdiyyətçiliklə zorsuzluğu birləşdirirdi. Ancaq bu baxışlar anarxizmin ucqarında, periferiyasında dururdu. Bakunin isə kollektiv zorakılıq ideyalarını təbliğ edirdi. Bu anarxizm Vətəndaş Savaşları çağından sonra populyarlığını itirsə də həmin vaxtacan Bakuninin yolu anarxizmin başlıca qolu olmuşdu. Bakunin 1877-ci ildə öldü, onun ideyaları isə daha çox yazılarda yox, barrikadalarda, aksiyalarda, türmələrdə yaşadı. Yazılarda onun fikir davamçısı Pyotr Krapotkinin ideyaları dövriyyəyə düşdü.

Bir maraqlı fakt. Bakuninin davamçıları slavyanlarla yanaşı ən çox latın dilli avropalılar (ispanlar, italyanlar, fransızlar) arasından ortaya çıxdı.

Beləliklə, 19-cu yüzilin sonu, XX yüzilin erkənlərinəcən böyük dünyanın hər yerində İmperiyaların, dövlətlərin zoru, gücü xaqanlıq edirdi və hər tərəfdə bu imperiyaları, dövlətləri dağıtmaq və ya onlardan nəyisə qoparmaq istəyənlər yenə də «zorun qabağına zorla çıxarlar» prinsipi ilə imkanlar axtarır, imkanlar toplayırdılar. XX yüziləcən iqtidarlar siyasətinin və anti-hakimiyyət siyasətinin mənzərəsi belə idi.

19-cu əsrdə siyasətin bu mənzərəsi öz oxşarını, analoqunu fəlsəfədə də tapmışdı. Artur Şopenhauer dünyanın, gerçəkliyin hansı prinsiplə «yığılması» məsələsini qoyandan sonra İradəni (İstədiyini yeritmək gücünü) göstərmişdi. Həmin yüzildə də Nitsşe varlığın başlıca prinsiplərindən birini «hakimiyyət iradəsi» adlandırmışdı: dünyada təbiətə də, cəmiyyətə də hakimiyyət iradəsi xaqanlıq edir. Hər yerdə nələrsə diri qalmaq üçün, davam etmək üçün zor işlədib başqalarını yenir, özünə tabe edir və beləcə, dünyada bir olay o biri olaylara bağlanır. Beləcə, yaşamaq gücü olanlar yaşamaları, olmaları üçün zəiflərdən istifadə edirlər.

Zor işlətmək deyəndə çox vaxt fiziki gücü işlətməklə kimisə nəyəsə məcbur etməyi, zorunlamağı nəzərdə tuturuq. Fiziki zora qolun zorunu, silahı, dəstənin (qoşunun və s.-nin) gücünü və s. aid edirik. Ancaq zor da var ki, sözdən, buyuruqdan, tapşırıqdan gəlir (əslində mədəniyyətə verilən maraqlı suallardan biri bu olardı: kimlər nələr etdilər ki, belə bir təəccüblü fenomen, — fiziki gücü olmayan işarələrin fiziki gücə çevrilməsi, fiziki gücü simulyasiya etməsi baş verdi)

Üzdə sözlərin, buyuruqların zordakı fiziki gücü olmur. Ancaq hər hal da yenə də, fiziki zor imkanları olan tərəfin sözü, buyuruğu zor alətinə çevrilə bilər (mənəvi nüfuzun məcburiyyətini qırağa qoyuruq). Özü də belə söz, buyuruq ona görə zor aləti sayılır ki, yönəldiyi tərəfi arxasında duran fiziki güclə qorxudub hədələməklə onu istəmədiyi davranışlara itələyir.

Hakimiyyətin zorunu, zorakılığını açmaq üçün cürbəcür anlatmalar var. Onlardan birini Ziqmund Freyd verir. O, «Dostoyevski və ata qatili» məqaləsində yazır ki, hər bir cəza özünün mahiyyətində axtalamaqdır (kastrasiyadır). Axtalamaq erkəyin erkəkliyini almaqdır. Oxşar olaraq hər hansı cəza insanın ləyaqətini alçaltmaqla insanı ərənlikdən əskik hala salır. Freyd bu mənada axtalanmanın gətirdiyi əskikliyi (çatışmazlığı) bütün cəzaların

Arxiv

gətirdikləri əskikliklərə prototip sayırdı. İnsanı ilkin olaraq zəhmli ata cəzalandırır və oğlan uşağı həmin cəzanı axtalanmanın oyatdığı duyğularla yaşayır (aralarında erkək rəqabəti olduğu üçün)

Freydsayağı danışsaq, hakimiyyət öz zorunu yeridib aşağıda duranları cəzalandıranda onun bütün bu işləri adamlarda ilkin axtalanmaq qorxusunun anatomik sxeminə laylanır.

Avtoritar hakimiyyət bu və ya başqa şəkildə zəhmli, qorxunc ata simvolundan istifadə edir. Belə hakimiyyət rəiyyətdə «atasının cəzasından ürəyi əsən zavallı uşaq kompleksini» yenidən dirildir. Bu cür uşaqların qorxusunda isə Freydin analizlərinə görə ən ilkində kastrasiya qorxusu durur.

Faşizmdə hakimiyyətə necə baxılmasını anlatmaq üçün Freydin davamçılarından Vilhelm Rayx başqa bir anlatma vermişdi: Milli-sosializmin ideoloqlarından biri, - Rozenberq dövlətə kişi hakimiyyəti kimi baxırdı. Dövlət kişi hakimiyyətinin saxlanması üçün yaranıb. Ona görə də dövlət simvolunda maskyulinlik (yəni kişi əlamətləri) çox güclüdür. Faşistlər demokratiyanın «həlimliyini», bax, bu kişi başlanğıcı, maskyulinlik adından danırdılar.

Bütün bu gətirdiklərimiz hakimiyyətin zor fenomeninə, hakimiyyət iradəsinin yeridilməsi və yedirilməsi üçün fiziki gücün ya ata, ya kişi gücü kimi qavranılmasına və ya hazırlanmasına maraqlı açımları verir.

## ZORDAN ÜZ DÖNDƏRƏNLƏR HARADAN ÇIXDI

Əslində zora qarşı zəifliyik taktikası dünya qədər qədimdir. Bu taktikanın nəticəsində gündəlik həyatda zor və maddi imkan sahibi olan kişilər "zəif" qadınlarından hər gün sarsıdıcı məğlubiyyətlərə məruz gəlir. Eramızdan əvvəl 411-ci ildə yunan filosofu Aristofan tərəfindən yazılmış «*Lisistrata»da* əsərin qəhrəmanı olan xanımın - Lisistratanın təhriki ilə onun qadın davamçıları elan edirlər ki, kişilər müharibəni başa çatdırmağa razılaşmayınca cinsi tətil edəcəklər.

Fəlsəfi fikir tarixində isə iradəni yeritməyin başqa texnikası, qələbə çalmağın, rəqibi yenməyin başqa üsulları da göstərilmişdi. İlk ən parlaq örnəyi Dao fəlsəfəsinin yaradıcısı Lao-szı vermişdi. Bu fəlsəfədə «yumşaq-yumşaq yeritmək», «yumşaqda güc imkanlarının tapmaq» ana xətt kimi sürüb gedir. Lao-szının bir aforizmində deyilirdi ki, su çox yumşaqdır, ancaq aşıb-daşanda heç nə qabağında durmur, hər şeyi altına alır. Beləliklə, Lao-szı yumşaqlıqla qələbənin, gücün əldə edilməsinin sübutunu su metaforasında tapırdı.

Daoslar deyirdilər: təbiilik qanununa düşmək istəyirsənsə, vurnuxmalardan qurtul, axına qarşı getmə, güclü ilə dirəşib hiddətə, öfkəyə yol vermə. Onun üzərində heç nə eyləməməklə qələbə çal. Güclüdə sənin üçün zəif nöqtələri tapıb o nöqtələrlə mübarizə apar.

İrəlidə dediyimizi bir də deyək: Daosizmdə yumşaqlıq (həm xasiyyət, həm də kövrəklik, çeviklik və s. anlamlarında) çox önəmli bir prinsipə çevrilsə də özündə hər halda qələbə çalmaq, yenmək, üstələmək «texnikasının» damğasını gəzdirirdi. Bu «texnika» xeyli sonralar Nitsşe fəlsəfəsində qəzəb doğurmuşdu. Bu filosof yumşaqlığın yazıqlıq variantını götürüb hirslə deyirdi: yazıqlıq da hakimiyyət iradəsini özündə gəzdirir. Hakim olmağa gücü çatmayan elə edir ki, ona hakim olanın yazığı gəlsin və onun şəfqətini doğurmaqla yazıq olan onu istədiyi kimi fırladır, deməli, hiylə ilə ona hakim olur.

Çində Dao fəlsəfəsi Hindistandan gəlmiş Buddizmlə çarpazlaşanda bu axırıncıda yeni bir qol, — Çan-buddizm yarandı (Yaponiyada Zen-buddizm). Həm Dao, həm Çan (Zen) müdrikləri həyatda konvensional (şərti) olan heç nəyə, var-dövlət, şan-şöhrət, müvəffəqiyyət və qələbələrə uymamaq və ona qarşı hərəkat etməmək prinsipini önə çəkdilər.

Beləliklə, XX yüziləcən zor fəlsəfəsi, qələbə, əldə etmək uğrunda güc yeritmək ideyaları gəlişdiyi kimi Uzaq Şərqdə passivlik, etməzlik, zorsuzluq etikası da gəlişmişdi. əxlaqa belə yanaşmanın həm Çin, həm də hind variantları vardı. əski Hindistanda Caynizm adlanan fəlsəfi-dini sistemdə bu zorsuzluq, qeyri-zorakılıq lap aşırı (həddən çox) olmuşdu.

Caynizm 6-cı yüzildə Vedik ənənəyə (hinduizm dininin kitablarından gələn ənənəyə) qarşı yaranmışdı. Vedlərə tapınan hindlilərdə, məsələn, heyvanları qurban kəsmək vardı. Caynizm buna qarşı çıxaraq dində qurban kəsmək ayinini yasaqlayırdı. Caynizmə görə ruhun azadlıq əldə etməsi insan üçün ən başlıca məqsəddir. Ruh maddələrlə, material dünya ilə bağlantısını qırdıqca təmizlənir və beləcə, yetginləşir, yetginləşdikcə isə azad olur. Caynizmə görə insan yalnız zorsuzluq, zorakı olmamaq yolunu tutmaqla qutunu, ruhunu beləcə arındıra, yetginləşdirə və deməli, azad edə bilər.

Caynizmdə çox önəmli ideyalardan birini «ahimsa» anlayışı verirdi. Ahimsa caynistdən tələb edirdi ki, heç bir canlı varlığa xətər yetirməsin, heç bir canlını nə yemək, nə təhlükəni sovuşdurmaq üçün öldürməsin. Bunun nəticəsində caynistlər vegetarian olurdular, yəni ətlə qidalanmırdılar.

Tanınmış hind filosofu və ictimai xadimi Mahatma Qandi bir caynist kimi dinindəki zorsuzluq ideyasını açıqlamaq üçün deyirdi: atalar sözü var, canlı canlıların hesabına yaşayır. Biz hamımız zəif, öləri insanlarıq və himsanın (zor işlətmənin) alovundayıq. İnsan bir dəqiqə də şüurlu, ya şüursuz həndəvəri ilə ilişgidə himsanı yapmadan yaşamır. İnsanın tək bircə yeməsi, içməsi arxasınca himsanı çəkib gətirir. Himsa ən kiçik miqyasda belə diriliyin, yaşamın dağıdılmasıdır. Ahimsanın (zorsuzluğun) tərəfdarı bunu bilir, ancaq başqalarından fərqli olaraq davranışının motivlərinə, əzəlinə yanımcıllığı, şəfqəti qoyur, çalışır ki, ən xırdaca dağıdıcılıqdan, öldürücülükdən belə yayınsın.

Onu da deyək ki, Caynizmlə təxminən eyni vaxtda zorsuzluqla, qeyri-zorakılıqla bağlı İslamda da oxşar baxışlar olmuşdu. Fəridədin Əttar «İlahinamə» kitabında belə bir xəbəri verirdi («xəbər» Hz. Əlinin yaşayışından gələn bilgilərə deyilir): Hz. Əli bir dəfə yolla tələsik gedirmiş, görmədiyi üçün bir qarışqanı tapdalayıb əzir. Gecə yuxusunda hz. Məhəmmədi görür. Peyğəmbər deyir: Ya Əli, yolda tələsmə! İki gündür bir qarışqa üzündən göylər yasa batdı, buna da səbəb sən oldun (bax: Feridedin-i Attar. İlahiname. İstanbul. Milli Eğitim Basımevi. 1947, s.75-76).

İslam mədəniyyətində dünyaya zorsuz münasibəti göstərən başaq parlaq fakt da var: sufilər hər nəsnədə (cisimdə) ruh gördükləri üçün hər şeyə hörmət edirdilər. Ona görə də namaz üçün duracaqları yeri öncə öpüb, sonra üstündə dururdular. Namazı bitirəndən sonra  yenə həmin yeri öpüb çəkilirdilər. Bunun mənası o idi ki, ayaq basdıqları yeri incitdikləri üçün üzr istəyirlər (bax: Abvülbaki Gölpınarlı. 100 soruda tasavvuf. İstanbul. «Gerçek Yayınevi». 1969, s.76).

Beləliklə, 19-cu yüzilin axırına, 20-ci yüzilin erkənlərinəcən siyasət və fəlsəfə qələbə çalmaq, uğur qazanmaq yolunda zorun, zorakılığın önəminə sübut üçün yetərli sayda ideyalar, faktlar arsenalını ortaya qoymuşdu. Ancaq bu vaxtacan zorsuzluq, yumşaqlıq ideyaları da dində, fəlsəfədə işlənib gəlişdirilmişdi.

Bu baxımdan, iki əqidənin inkişafında nəsə paralellik vardı. Ancaq bu paralel inkişafda gözlənməz o oldu ki, birdən birə zorsuzluq fəlsəfəsi, etikası çağdaş dünyanın siyasətinə keçdi. Nəinki siyasətə keçdi. Hətta demokratiyanın və müxtəlifliyi qəbul edən cəmiyyətinin ruhunun yaranmasında, müqavimət hərəkatını qurmasında çox böyük sonuclar verdi...

Demokratiya tarixi fərdlərin zorsuz müqavimət aksiyalarnan doludur. Qədim Yunanıstanda, müstəqillik uğrunda vuruşan orta əsrlər Hollandiyasında, parlamentin müdafiəsinə qalxan İngiltərədə, vətəndaş və siyasi haqlar uğrunda vuruşan 19 əsrin Avropada belə nümunələrlə olduqca zəngindir. Lakin yaxşı işlənmiş ideologiya kimi və uğurlu ümumxalq hərəkatı kimi zülmə qarşı zorsuz müqavimət Mahatma Qandi başçılığı ilə Hindistanın istiqlal hərəkatı oldu.

HİKMƏT HACIZADƏNİN Arxiv 2025 KİTABXANASINDAN

## ZORSUZ MÜQAVİMƏT HƏRƏKATI

Hər hansı iki dini bir araya sığmaz sayanların ağlına gəlməz bir olay. Bəzən bir dinin ideyaları, Kitabı o biri dinin hansı gizlinlərinə isə möminlərin, alimlərin gözünü açır. Bu dediyimizə örnəyi Xristianlıqla Caynizm arasında da tapmaq olar. İisus Xristosun təlimində aparıcı yeri Sevgi və zülmə zorsuz müqavimət tuturdu. “Və əgər kimsə sənin sağ yanağına sillə vurarsa, ona sol yanağını da çevir. Üst paltarını əlindən alırsa, ona sənin alt paltarını almağa mane olma …”.  Məhz sevgi ideyasından xristian yumşaqlığı, şəfqəti çıxırdı. Lev Tolstoy Mahatma Qandiyə cavab məktubunda Xristianlığın bu özəlliyini belə anladırdı: “Sevgi, yəni insan ruhlarının birgələşməyə, vəhdətə can atması yaşayışın, diriliyin ən üst qanunudur. Bunu hamı bilir, sadəcə, yanlış təlimlər çoxlarını bu bilikdən azdırır”. Sevginin deyilən önəmini Çin, hind, yəhudi, Roma müdrikləri də insanlara başa salmağa çalışmışdılar. Ancaq yalnız İisus Xristos tam aydınlığı ilə bu qanunu insanlara açdı. Xristian millətlərinin başqa dində olanlardan başlıca ayrılığı odur ki, xristianların yaşayışında sevgi çox aydın və üstün yer tutur. Tolstoya görə bütün bunlara baxmayaraq eyni zamanda xristianların tarixi, dövlət həyatı zorakılıqla doludur.

Tolstoyun Qandiyə belə bir məktub göndərməsinin maraqlı tarixçəsi vardı. İş burasındadır ki, Güney Afrikada ağlar və rənglilərlə bağlı irqçilik siyasətindən, özəlliklə hindlilərə qarşı alçaldıcı münasibətlərdən hiddətlənmiş Qandi «nə etməli» məsələsini düşünəndə özünün yazdığı kimi Tolstoyun «Qısa İncil», «Yaxşı biz nə etməliyik» əsərləri ona güclü təsir göstərmişdi. Bu əsərlərdən insan dünyası üçün sevginin dəyərini, önəmini anlayandan

sonra, sevgi ilə düşmənçiliyi yenməyin fəlsəfəsini mənimsəyəndən sonra onun gözləri hind ənənəsində, dini kitablarında sevginin, şəfqətin, düşmənçilikdən yayınmanın önəmi haqqında deyilənlərə də açılmışdı. Beləliklə, Xristianlıq Qandiyə Caynizmə yeni qavrayışla yanaşmaq yolunu açmışdı. Qandi, məhz, bu yeni qavrayışın əsasında zorsuz müqavimət fəlsəfəsini hindistanlıların haqlarını qorumaq, milli azadlığını əldə etmək üçün «ixtisaslaşdırmışdı».

Qandinin başladığı hərəkata bir az yaxından baxaq. O, hüquqşünas təhsilini alandan sonra işləmək üçün Güney Afrikaya köçmüşdü. Böyük Britaniya imperiyasının tərkibində olan Hindistan adamları üçün belə yerdəyişmələr elə də çətin deyildi. İmperiya Hind tacirləri, işçiləri üçün miqrasiyaları az qala bir ölkədə gəzmək faktına çevirmişdi. Bunun sonucu idi ki, Güney Afrikada yetərli sayda hindilər işləyib yaşayırdılar.

Qandi bu məmləkətə gələndə qəribə bir irqçiliyin təcavüzünü ilk dəfə öz üzərində duydu. Demə, ariyalı adlandırılan hindlilər də Güney Afrikada rənglilər kateqoriyasına salınmışdılar. Burada avropalılara verilən haqlar təkcə qaralara yox, hindlilərə də çox görülmüşdü.

Ayrı-seçkiliyin ilk təcrübəsini Qandi birinci dəfə belə yaşadı: bir dəfə vaqona oturanda həmin vaqon ağlar üçün olduğundan onu oradan qovur, çıxardılar. Qandi daha sonralar başqa belə alçaldıcı hərəkətlərə məruz qaldı.

Araşdırıcılar Qandinin bu faktlara münasibətində maraqlı bir məqamı tuturlar. Haqsızlıqla rastlaşanda o, sadəcə, hiddətlənmədi, dalaşqan hərəkətlərlə cavab vermədi. Qandi irqçiliyə, eləcə də başqa haqsızlıqlara hindli, geniş götürəndə isə insan ləyaqətini alçaldan aktlar kimi baxdı və bu baxımdan da onlara qarşı mübarizəyə qalxdı. O, hindlilər arasında maarifləndirmə işi aparıb onlara haqlarını anlatmağa başladı.

1906-cı ilin Sentyabrında Yohanesburqda hindlilər kütləvi etiraz mitinqlərinə keçəndə maraqlı bir hadisə baş verdi. Burada etiraz iştirakçıları sözü bir yerə qoydular ki, onlara qanuna görə nə cəza versələr də bu cəzalardan qorxmayıb cəzalarını çəkəcəklər, ancaq etirazlarından dönməyəcəklər.

Beləcə, Güney Afrikada 7 il çəkən Satyaqraha (Həqiqətə, Gerçəyə özünü həsr etmək) hərəkatı başladı. Bu, yalanı, ədalətsizliyi, haqsızlığı faş edən yeni bir yol idi.

Hərəkatın yüksəliş və eniş nöqtələri olsa da kiçik hindli azlığı Qandinin öndərliyi ilə dözülməz bərabərsizliyə qarşı dirənişdə durdular. Yüzlərlə hindli onları alçaldan qanunlara boyun əyməkdən yayındı, azadlığı, özünəsayğını daha üstün tutdular.

1913-cü ildə hərəkatın axırıncı dönəmində qadınlar da qatılmaqla yüzlərlə hindli həbsxanalara düşdü, minlərlə hindli işçi gülləboran və başqa təhlükələrlə, çətinliklərlə üz-üzə durdular, ancaq geri çəkilmədilər. Bu, hakimiyyətə, hakim rejimə qarşı mübarizə idi. Ancaq bu mübarizənin bir prinsipial yeniliyi vardı. Yenilik onda idi ki, mübarizə zora qarşı zor işlətmədən, zora dinc yollarla müqavimət göstərməklə aparılırdı. Hindlilərin zorsuz mübarizəsinin axır o oldu ki, Böyük Britaniya hökumətinin təzyiqi ilə Güney Afrika iqtidarı güzəştlərə getməyə məcbur oldu. Güney Afrikanın dövlət adamı general Con Smutla Qandi arasında danışıqlar aparıldı və saziş bağlandı.

Sonralar çox maraqlı bir şey oldu. General Smut Qandiyə əks cəbhədə dursa da 1914-cü ildə bu hind kişisi Güney Afrikadan çıxıb gedəndə onun haqqında dostuna yazdı: "*Müqəddəs adam* bizim sahilləri tərk etdi. ümid edirəm, həmişəlik». 25 il sonra isə general bildirmişdi: görünür mənim taleyimə yazılıbmış ki, yüksək sayğı bəslədiyim bir adamın antaqonisti olum.

Maraqlıdır ki, Qandi həbsxanada olanda rəqibi general Smuta bir cüt səndəl toxumuşdu. Qandi deyirmiş ki, bizim aramızda xəstə və şəxsi ədavət yoxdur, ona görə barışa da yer var.

Sonrakı olaylar göstərdi ki, Qandi hərəkatı Güney Afrikada hindli problemini çözmədi. Ancaq Güney Afrikaya Qandinin faydası az olsa da Güney Afrika təcrübəsinin Qandiyə xeyiri daha çox oldu. Bu ölkə ona həm siyasi aksiyanın yeni texnikasını tapdırdı, həm də onu lider kimi yetişdirdi.

Sonralar Cilber Murrey Qandi haqqında bunları yazdı: «Hakimiyyət cismani tələblərə, istəklərə bağlanmamış Qandi kimi adam qarşısında nə edə bilər?!»

İndi isə Qandinin Hindistandakı mübarizəsinə baxaq. Qandi yurduna qayıtmamışdan öncə, artıq, 1885-ci ildə burada Hindistan Milli Konqresi (qısaca Konqres Partiyası) yaradılmışdı. Hindistanın müstəqilliyi uğrunda hərəkatda bu partiya başlıca siyasi güc idi (ona görə də 1947-ci ildə ölkə Böyük Britaniyadan bağımsızlıq əldə edəndə hökuməti məhz Konqres Partiyası formalaşdırdı).

HİKMƏT HACIZADƏNİN Arxiv KİTABXANASINDAN

Qandi 1920-1930-cu illərdə Milli Konqresə lider oldu və onun təsiri altında həmin çağlarda Konqres əməkdaşsızlıq hərəkatını apardı. «əməkdaşsızlıq» ideyası zorsuz müqavimətin bir forması kimi onu nəzərdə tuturdu ki, əhali hakimiyyətə itaətsizlik, sözəbaxmazlıq göstərəcək.

Bununla Qandi hərəkatı müstəqil olmayan Hindistanda Britaniyanın 1919-cu ildən gerçəkləşdirmək istədiyi təpərsiz, zəif konstitusion islahatına etiraz etdi. Etiraza başqa bir səbəb də vardı. Bu da 1919-cu ilin Aprelində Amritsarda Britaniya hökumətinin törətdiyi qırğın idi. Həmin qırğında 400 min hindli öldürülmüşdü. Böyük Britaniyanın müstəmləkəçi amansızlığına, zoruna cavab olaraq Qandinin təşəbbüsü ilə hərəkatın fəalları və əhali rəsmi təhsil sistemini, məhkəmələri, idarələri, xarici malları, hökumətin keçirmək istədiyi seçkini boykot etməyə başladılar. Boykot əlaməti olaraq adamlar vergiləri verməkdən də boyun qaçırırdılar. Hindistanda əməkdaşsızlıq hərəkatı belə başladı.

1930-cu ildə Qandi ədalətsiz duz vergisinə görə kəndlilərin kütləvi yürüşünü təşkil etdi (bu vergi avropalılara duz istehsalında, ticarətində üstün vəziyyət yaradırdı). Yürüşçülər Əhmədabadın yaxınlığından Dandi dənizinin sahillərinəcən yola düşdülər və orada başladılar qanunsuz olaraq duz yığıb satışa verməyə. Bu zaman Qandi milyonlarla hindlini hərəkata cəlb etdi ki, onlar Britaniya qanunlarını pozsunlar.

(u faktı tanınmış Polşa haqqoruyucusu Marik Navitski Bakıda Plyuralizm Mərkəzlərinin Forumunda çıxış edəndə belə bir məsələ, pritçaya çevirmişdi: "İngiltərə müstəmləkəsi çağlarında Hindistanda hindlilərə duz hazırlamaq yasaq idi. Bir dəfə 10 hindli dəniz qırağında duz yığır. Polis onları tutur. Sabahısı 100 nəfər orada duz bişirir, polis onları da tutur. O birisi gün, artıq, 1000 nəfər həmin işi görür və polis 1000 nəfəri dustaq etməli olur. Bundan sonra duz bişirənlərin sayı 10 000 çatır. Vəziyyət belə olanda Britaniya həbsləri dayandırır və duz haqqında qanunu dəyişdirməyə məcbur olur."

Navitski bu vəziyyətlə Sovetlərdəki vəziyyəti tutuşdurub əlavə edir: "Sovetlərdə də adamların sayı 10 000-ə çatanda həbslər dayandırılardı. Ancaq qanun dəyişdirildiyi üçün yox. Sovetlərdə qanunu dəyişdirməzdilər, sadəcə, iş on minlərə çatanda hökumət özünü görməməzliyə vurardı. Hüquqi Dövlətlə Hüquqdan üstdə duran Dövlətin fərqi budur. Böyük Britaniya müstəmləkəçi dövlət olsa da hüquqi, qanuncul dövlət idi."

Hindistanda 30-cu illərdə Qandinin başçılığı ilə başlamış bu itaətsizlik, sözəbaxmazlıq hərəkatı da Satyaqraha hərəkatı adlanırdı. İndi isə baxaq görək Qandinin yaratdığı Satyaqraha hərəkatının fəlsəfəsi hansı ideyalara söykənirdi.

Satyaqraha hindcə əsil, doğru güc deməkdir. Həm də irəlidə dediyimiz kimi özünü Həqiqətə, Doğruya həsr etmək anlamını verir. Qandi həmin anlayışın dilində zorsuz müqavimətlə ayrı-ayrı Yamanlara, Şərə qarşı durmağı bildirirdi. Bu yamanlar, bu Şər isə toplumda insanın ləyaqətini alçaldan, insana zülm edən nə vardısa, onların adı idi.

Qandiyə görə Satyaqraha praktikasında bulunan adam Yaman, Şər qurşağının, həndəvərinin ortasında öz ruhunun zorsuz təbiətini seyr edəndə, barışqanlıqda, dinclikdə və sevgidə Həqiqəti, Doğrunu axtaranda nurlanır. Beləcə, satyaqrahaçının şüuruna Mütləq Həqiqətlər açılır. Bu vaxt o, yanlışa, əyriyə boyun əyməyi, yamana qulluq etməyi inkar etməklə Gerçəyə qulluq etmiş olur. Yamanla ziddiyyətə girəndə zordan çəkinirsə bunun sonucunda zorakılıq onun Doğrunu görməsinə əngəllər qoymur.

Qandinin öyrətməsinə görə satyaqrahçı həmişə öz rəqibinə öncədən bildirir ki, nə edəcək. O, kiminsə üstünlüyünün sirlərini öyrənib bundan istifadə etməyi (məsələn, şantajı) özünə yasaq edir.

Bu tezislər Qandinin nəyinə gərək idi? İş burasındadır ki, qəfil yaxalamaq, rəqibin sirlərini öyrənib onun silahından istifadə etmək zorakılığın məşhur fəndlərindəndir. Satyaqraha zora qarşı durduğu üçün də zorun bu taktikasına qarşı dururdu.

Qandiyə görə Satyaqraha gündəlik yaşam tərzini verir və bu yaşam tərzləri toplumda yavaş-yavaş alternativ siyasi, iqtisadi institutlar törədir. Yəni nə qədər çox adam Satyaqraha prinsiplərində həyat sürürsə, cəmiyyətdə o qədər də qaçılmaz olaraq zorsuz yollarla insan ləyaqətini qoruyan qurumlar (institutlar) yaranır. Bu günkü mülki cəmiyyət tərəfindən zamanın o tayında Qandinin söylədiklərinə baxıb deyə bilərik ki, təzyiq gücü olan ictimai rəy, insan haqlarını qoruyan hökumətdən qıraq dərnəklər və s. məhz Qandinin dediyi alternativ institutlar oldu.

Başqa mübarizə formaları kimi Satyaqraha da əldə etmək, yiyələnmək yollarını arayırdı. Zor işlətməklə əldə etmək, yiyələnmək texnikası hamıya tanışdır. Satyaqraha haqqında isə Qandi deyirdi: "Biz özümüzü dəyişdirməklə, dəyişmələrə uğratmaqla əldə etmək, yiyələnmək yolunu tuturuq". Bunu örnəkdə açaq. General

HİKMƏT HACIZADƏNİN
Arxiv

Smuta Qandi həbsxanada bir cüt səndəl toxuyanda onun ürəyinə, insani keyfiyyətlərinə təsir edib bu yolla onun rəğbətinə yiyələnmişdi. Düzdür, Smut missiyasına, vəzifəsinə görə ürəyində yaranmış rəğbətini gizlətməli olurdu. Ancaq irəlidə gördüyümüz kimi 25 il sonra isə general Qandiya yüksək sayğı bəslədiyini boynuna aldı.

Qandinin Satyaqraha hərəkatı siyasətdə vətəndaş itaətsizliyi və ya passiv müqavimət adını alıb. Vətəndaş itaətsizliyi, sözəbaxmazlığı, passiv müqavimət hökumətin, ya da istilaçı qüvvələrin tələblərinə, göstərişlərinə əməl etməmək vasitəsi ilə müxalifətdə durmağı bildirir. Bu zaman müxalifətçiliyin aktiv, hücumçu, həmləçi güc-təsir-təzyiq ölçülərindən istifadə olunmur.

Vətəndaş itaətsizliyi yolunu tutmuş müxalifətçilər məhz passiv müqavimətlərlə hakimiyyəti güzəştlərə getməyə məcbur etməyə çalışırlar.

Güney Afrikadakı, Hindistandakı azadlıq hərəkatında, fəlsəfəsində vətəndaş itaətsizliyi böyük rol oynamışdı. Birləşmiş Ştatlarda qaraların vətəndaş hüquqları uğrunda hərəkatında, bir çox ölkələrdə fəhlələrin və müharibəyə qarşı olanların hərəkatında da vətəndaş itaətsizliyi geniş istifadə olunmuşdu.

Beləliklə, indiki bölməmizdə passiv müqavimət haqqında bir ümumiləşdirmə aparmaq olar: vətəndaş itaətsizliyi qanunların simvolik, ya da ritual şərtiliyində pozulmasıdır. Qanunu belə pozmaq onu bildirir ki, insan konkret çıxarısı üçün qanunu pozmur, Pozur ki, qəsdən pozduğunu hamıya göstərsin. Pozur ki, belə bir qanunu tanımadığını dörd yana bildirsin, pozur ki, etirazını göstərsin.

Demokratik ölkələrdə qanunu bu cür pozanlar, adətən, siyasi sistemi, rejimi bütünlükdə inkar etmirlər. Onlar, sadəcə, insan haqları, azlıqların hüququ ilə bağlı ədalətsizliyi danırlar.

Sözsüz, qanunun bu şəkildə pozulması da cinayətdir. Ancaq belə «cinayətə» yol verənlərin hərəkətlərini izləyən ictimaiyyət qanunlarla bağlı itaətsizlik aktlarının etiraz forması olduğunu yaxşı anlayır və hətta, görürsən, vaxt gəlir ki, çoxluq yaxşı anlamaqla yanaşı həmin qanunsuz davranışları bəyənməyə də başlayır. Vətəndaş itaətsizliyini göstərənlərin təsir, nüfuz gücünü xüsusi ilə o artırır ki, belə adamlar həbsxanalara düşəcəklərini gözlərinə alıb qanunu qəsdən, simvolik şəkildə pozurlar və onların bu mətinliyi, fədailiyi getdikcə adamları valeh edir.

Onu da bilməliyik ki, zorsuz aksiyalar mənəvi potensial üçün şəraitlər açılmış toplumlarda təsirli olur. Belə toplumlarda, adətən, hakimiyyət ictimai rəylə hesablaşır. Ona görə də zorsuz müqavimətlərin fədakar örnəkləri ictimai rəyi dəyişəndə həmin rəyin təzyiqi sonucunda hakimiyyət də hansı qanunlara, hansı hallarasa yenidən baxır.

Ancaq ölkə demokratik olmayanda belə, zorsuz hərəkat yenə də fayda verir, çünki adamların vicdanını oyadır, cəmiyyətdə əxlaqi havanı nisbətən yaxşılaşdırır və kütləviləşəndə yenilməz olur.

Arxiv
2025

## ÇAĞDAŞ DÜNYADA ZORSUZ MÜQAVİMƏT AKSİYALARI VƏ HƏRƏKATLARI

Biz ideya, fəlsəfi planda zorsuz mübarizə məsələsinin düşüncə mədəniyyətlərində necə yetişdiyini qısa da olsa izlədik. Bu mübarizənin praktikasının da ayrı-ayrı ölkələrin, mədəniyyətlərin tarixində cürbəcür təzahürləri olub.

Zorsuz mübarizənin bir simvolunu farslar və Güney Azərbaycan türkləri Səttarxan hərəkəti zamanı sınaqdan keçirmişdilər. Tarixdən aldığımız soraqlara görə o vaxtlar İranda yüzlərlə adam «bəstə oturmaq» adlanan etiraz aktlarını edirmişlər.

(Oturaq etiraza ilk dəfə hindlilər Britaniyadan azad olmaq uğrunda mübarizələrində əl atmışdılar. Sonralar Amerikanın vətəndaş hüquqları uğrunda hərəkata qalxmış qaraları bu simvolu götürdülər. Daha sonra tələbələr Birləşmiş Ştatlarda oturaq etirazdan Vyetnam savaşını pisləmək üçün istifadə etdilər. İşçi hərəkatında oturaq etirazlara, məsələn, Ceneral Motorsun fəhlələri əl atmışdılar və bunun sonucunda şirkət Avtomobil Fəhlə Həmkarlar Birliyini tanımalı olmuşdu).

Qeyri-zorakı aksiya formalarından biri də boykotdur. Bu cür aksiyanı 1880-ci ildə İrlandiyada Çarlz Styuart Parnel başladı. Parnel torpağın yüksək qiymətdə icarəyə verilməsinə və məskunlaşdırmasına qarşı etiraz olaraq əhalini torpaq sahibləri ilə bütün əlaqələri kəsməyə çağırdı. Bu üsul ilk dəfə Boykot adlı bir torpaq sahibinə tətbiq olundu və bu cür etiraz formaları bundan sonra dünyada boykot adlandırıldı.

10 il sonra, 1890-cı ildə boykota İran əhli əl atdı. Burada Nəsrəddin şah xaricilərə ucuz «satdığı» imtiyazlara görə çox böyük hiddət doğurmuşdu. Məsələn, o bütün tənbəki sahəsində inhisarı, təkəlçiliyi Folbot kampaniyasına vermişdi. Buna cavab olaraq Kərbala müctəhidi Mirzə Həsəni-Şirazi fitva verib qəlyan çəkməyi İran əhlinə yasaqladı. Bütün İranda, eləcə də Güney Azərbaycanda adamlar qəlyanlarını sındırdılar. Tənbəki satışında böhran yarandı və sonucda Nəsrəddin şah Tolbot firmasının imtiyazını alıb sonra da buna görə ona cərimə verməyə məcbur oldu (bax: Ahmet Ağaoğlu. İran inqilabı. İstanbul. «Akşam Matbaası». 1941-42, s.18).

Onu da deyək ki, «tənbəki qiyamı» adını almış bu boykot İranda yeni durum yaratdı və bu durumun təsiri ilə Müzəffərəddin Şah bəzi islahatları aparmalı oldu.

Daha sonra 1919-cu ildə boykotdan çinlilər Versal Barışına qarşı istifadə etdilər. Bu barışa görə Şantunq Yaponiyaya verilirdi. Hakimiyyət ayağa qalxmış bir xeyli tələbəni qiyamda suçlayaraq həbs etdi. Çini etiraz dalğaları bürüdü. Tacirlər dükanlarını bağlamaqla boykot aksiyalarına keçdilər, bankdılar isə maliyyə əməliyyatlarını dayandırdılar. Bunun sonucunda hakimiyyət tələbələri türmələrdən buraxmalı oldu. Hadisə isə sonralar Çində inqilab hərəkatına yol açdı.

Başqa bir dinc mübarizə vasitəsi aclıq aksiyasıdır. Maraqlıdır ki, belə bir dinc aksiyadan hətta zor metodlarından yayınmayanlar da istifadə ediblər. Məsələn, xanım Kristabel Pankrust Britaniyada qadınların səsvermə hüququ uğrunda hərəkatı başlayanlardan idi. O, zorakı hərəkətlərin önəmini bildirmək üçün kredosunu həmkarlardan götürmüşdü: «İşlər söz deyil!». Kredonun mənası o idi ki, laf söyləmək əvəzinə kəskin hərəkətlər etmək gərəkdir. Kristabel hesab edirdi ki, qadınların səsvermə hüququ uğrunda mübarizəsinin qələbə çalması üçün militant (hərbi, zorakı) taktikadan istifadə etmək gərəkdir. O, 1905-ci ildə atəş açmaqla Mançesterdə Liberal partiyasının mitinqinə çaxnaşma salmışdı və bu hərəkətinə görə də həbs edilmişdi (atəş aksiyası bütün dünyaya səs salmışdı). Ancaq dediyimiz kimi, Kristiabel Pankrust öz hərəkatında fiziki təsiri olan aksiyalarla yanaşı aclıq aksiyalarından da istifadə edirdi. Bu qadının militant-hərbi naturası sonralar ona gətirdi ki, Birinci Dünya Savaşında o, Britaniyada döyüş ruhunun qaldırılmasında görkəmli rol oynadı. Ömrünün axırına yaxın isə Kristabel Pankrust dinclik fəlsəfəsini yevangelist təriqətinin rahibəsi olmaqda tapdı.

Zorsuz aksiyalardan ən faciəlisi özünü yandırmaqdır. Diem adlı siyasətçi Güney Vyetnamda hakimiyyətdə olanda onun Buddist rahiblərinə basqısı etiraz əlaməti olaraq özünü yandırma «silsiləsini» törətmişdi. Rahiblər Birləşmiş Ştatların xəbər verilişlərinə işləyən kameralar qarşısında bir-bir özlərini yandırmaqla hiddətlərini bildirməyə başladılar. Bu aksiyaların təsiri sonucunda Prezident Kennedi dövlət elçisi Henri Kabot Loca gizli tapşırıq verdi ki, orada hərbi çevrilişə dayaq versin. Nəticədə Diem 1963-cü ildə qətlə yetirildi («buddistlərin ahı onu tutdu»)

Bu sadalamalardan sonra 20-ci yüzildə qeyri-zorakı mübarizənin Hind milli azadlıq hərəkatından sonra ikinci böyük örnəyinə baxaq. Bu örnəyi Birləşmiş Ştatların zənci əhalisi vermişdi. Biz 50-ci illərdən Ştatlarda başlamış 60-cı illərəcən davam etmiş vətəndaş hüquqları hərəkatını deyirik. Hərəkata Martin Lüter Kinq öndərlik etmişdi. O, Baptist ruhanisi idi.

HİKMƏT HACIZADƏNİN Arxiv 2025 KİTABXANASINDAN

1951-ci ildə M.Kinq Çester Seminariyasında oxuyanda ilk dəfə Mahatma Qandinin zorsuzluq fəlsəfəsi ilə tanış olmuşdu. 1959-cu ildə isə bu yolda qazandığı nüfuzuna görə Cəvahirləl Nehru onu Hindistanda Qandinin davamçısı kimi böyük sayğı ilə qarşılayır.

Martin Lüterin mübarizəsinin tarixçəsi qısaca belədir. 1953-cü ildə o, Alabamada Montqomeri kilsəsinin pastoru olur. İki ildən sonra baş vermiş bir hadisə onun Alabama ştatında irqi ayrı-seçkiliyə qarşı mübarizəyə başlamasına ilham verir.

1955-ci il Dekabrın 1-də zənci qadın Roza Parks avtobusda ön oturacaqdan durub yerini ağ adama vermək istəmir (ştatın qanunu isə buyurur ki, ictimai nəqliyyatda ağ adam gələndə zəncilər yerini ona verib arxada oturmalıdırlar). Qanuna qarşı itaətsizlik etdiyi üçün Roza Parks həməncə türməyə salınır.

Bu hadisə güman ki, diqqəti çox çəkməzdi, əgər Martin Lüter Kinq olmasaydı. Gənc Baptist pastoru zənciləri inandırır ki, nəqliyyatda seqreqasyon (ayrı-seçkilik) qanununu aradan götürmək üçün ictimai nəqliyyatı boykot etmək gərəkdir. Zəncilər öncə bir günlük boykot aksiyasına keçirlər və bu aksiya ilə həm də Roza Parksın tutulmasına qarşı çıxırlar. Daha sonra Kinqin təşəbbüskarlığı ilə 382 gün çəkən «Montqomeri Avtobus Boykotu» deyilən hərəkat yaranır. Kinq boykotu təşkil edən Quruma sədr seçilir.

Avtobusların boykotundan başlayan aksiyalardan təxminən bir il sonra Ali Məhkəmə Alabama ştatı kimi dairələr haqqında qərar çıxarır ki, oturacaqların seqreqasyonu Konstitusiyaya ziddir.

Bu, zənci vətəndaş hərəkatının çox böyük uğuru olur. Hərəkatın sonucunda nəqliyyatda, məktəblərdə seqreqasyon aradan götürülür. Hərçənd Güney Ştatlarının ucqarlarına yenilik gedib çatmır.

Kinqin Sədr kimi ilk çıxışı onun mübarizəsinin dinc, zorsuz təbiətini yaxşı açır. Baptist pastoru deyir: "Bizim boykotdan başqa alternativimiz yoxdur. Neçə illərdir, biz heyrətamiz səbr nümayiş etdiririk. Bəzən ağ qardaşlarımıza özümüzü elə göstəririk ki, guya necə davranırlarsa, bizə elə də xoşdur. Ancaq bu gün axşam bura gəlmişik ki, azadlıq və ədalət yolunda səbrimizdən özümüzü qurtaraq".

Beləliklə, Amerika yeni bir səs eşitdi. Vətəndaş hüquqları uğrunda mübarizəsini yüksəldən yeni bir simanın qalxışına şahid oldu. Bu simanın siyasi mübarizə haqqında yeni baxışları vardı. O inanırdı ki, zorsuz vətəndaş dirənişi, müqaviməti vətəndaş hüquqları uğrunda çox effektli, kəsərli silahdır. Kinqin ailəsini, özünü çoxlu təhlükələr gözləyirdi. Ancaq bütün bunlara baxmayaraq o, mübarizəsindən qalmadı və bu mübarizə axırda seqreqasyon qanununun aradan götürülməsi ilə bitdi.

Kinq doğma şəhəri Atlantaya gəlib orada ruhanilik edəndə də vətəndaş hərəkatının başında getdi. O burada tələbələrin keçirdiyi etirazlara (1960-cı il) dayaq oldu və 33 tələbə ilə qanunu pozduğu üçün həbs edildi. Bu dinc etiraz hərəkatını Tələbələrin Qeyri-Zorakı Koordinasiya Komitəsi başlamışdı. Tələbələr aksiya formasını Mahatma Qandi hərəkatından götürərək yeməkxanadakı seqreqasyona qarşı çıxış edirdilər. Ayrı-ayrı yerlərdə, mağazalarda, məktəblərdə, yataqxanalarda, ştatlararası nəqliyyatda seqreqasyonu aradan götürmək üçün 700 000-cən həm qara, həm də ağ dərili tələbə etirazlarda iştirak edirdi. Kennedi bu hərəkatın liderlərini dayaq çıxdı və bir də bu səbəbdən Prezident seçkisində qaralar arasından çoxlu səs qazandı.

1963-cü il Kinqin başçılıq etdiyi hərəkatın zirvə nöqtəsi oldu. Aktiv dinc, qeyri-zorakı etiraz hərəkatı dürlü formalar aldı. Oturaq etiraz, etiraz yürüşü həm qaralar, həm ağ liberallar tərəfindən bütün Amerikaya yayıldı. Bu hərəkata prezidentlər Kennedi və Lindon Conson da dayaq durdu.

Kinq vətəndaş hüquqları üzrə çıxışında zorsuz dirəniş metodunu belə əsaslandırırdı: "Soruşa bilərsiniz ki, niyə birbaşa aksiyalara, məsələn, oturaq etirazlara, yürüşlərə keçməliyik. Bəlkə danışıqlara getmək daha yaxşıdır! Danışıqlara çağırmaqda siz haqlısınız. Ancaq bizim bütün bu zorsuz aksiyalarımız məhz onun üçündür ki, elə bir krizis və ya gərginlik yaransın ki, axırda qoyduğumuz məsələyə diqqət artsın və onlar danışıqlara getməyə razı olsunlar. Biz acı təcrübələrdən yaxşı bilirik. Zülmkarlar azadlığı, özgürlüyü könüllü vermirlər. Əzilən azadlığını tələb etməlidir. Azadlıq uğrunda dirəniş göstərmək gərək!"

Kinq belə çıxışlardan sonra ayrı-ayrı grupları barışıq içində bir araya gəlib Vaşinqtona doğru tarixi yürüşə çıxmağa çağırdı. O bilirdi ki, belə bir aksiya azman olsa, toplumda dramatik vəziyyət yaradıb düşüncələri dəyişdirəcək, xalqın özünə, eləcə də bütün dünyaya göstərəcək ki, ABŞ-də irqi problem ciddidir və çözülməlidir.

Hadisələrin gedişi Martin Lüterin gözlədiyi kimi də oldu. Yürüşə iki yüz minəcən adam qoşuldu. Yürüşün mitinqində Kinq «Mənim arzum var» adlı parlaq çıxışını yapdı. Burada o, Bibliya cümlələri ilə mənalı danışmalara girən sözlər söyləyib ümidini bildirdi ki, bir vaxtlar insanlar qardaş olacaqlar (bax: *Martin Luther King Jr. I have a dream.* - «Basic Readings in U.S. Democracy». Washington, D.C., 205447, p. 228-229).

Montqomeridə başqa bir yürüşü təşkil edib yola düşəndə Kinqin 1 500 nəfərlik qaralardan və ağlardan ibarət dəstəsinin qarşısına silahlı güc strukturları çıxdı. Belə olanda Kinqin tərəfdarları Pettus körpüsündə diz çöküb dua etməyə başladılar. Zorsuz mübarizə həmin hadisənin sayəsində bir parlaq örnək də qazanmış oldu.

M.L. Kinqin başçılıq etdiyi hərəkatın sonucunda Cənub Ştatlarında qanun səviyyəsində irqi ayrı-seçkiliyə son qoyuldu. Ünlü Baptist pastoru isə 1964-cü ildə Barış üzrə Nobel Mükafatı aldı. Kinqin həyatına 1968-ci ildə terrorçu gülləsi son qoydu.

Hikmət Hacızadənin Arxiv Kitabxanasından

## ZORSUZ, DİNC MÜQAVİMƏT AKSİYALARININ FORMALARI, SİMVOLLARI

1974-cü ildə amerikan yazarı Cin Şarp dünyanın demokratik fəalları arasında sonralar çox tanınmış bir kitabı çap etdi. Kitab adlanırdı «Zorsuz aksiyalar siyasəti» (G. Sharp.The Politics of Non-Violent Action. Boston. 1974). Burada o həm zorsuz siyasətin tarixindən, həm də zorsuz aksiyaların formalarından bilgi verirdi.

Kitabında Cin Şarp «zorsuz mübarizə silahlarını» üç kateqoriyaya bölmüşdü:

A. Zorsuz etirazlar və təsirlər.
V. Əməkdaşsızlıq.

S. Hansı işəsə zorsuz, dinc qarışmaqlar.

A. ZORSUZ ETİRAZ VƏ TƏSİRLƏR:

*1. Rəsmi bildirilər, bəyanatlar:*

Qurumların və təşkilatların Bəyannaməsi
İctimaiyyət üçün tanınmış adamların imzaladığı.
Dəstənin və ya kütləvi çoxluğun petisiyası (yazılı şikayəti).

*2. Kütlə üçün ünvanlanmış vasitələr:*

Çağırışlar (lozunqlar), karikaturalar, simvollar.
Bayraqlar, plakatlar, başqa görüntülü vasitələr.
Vərəqələr, pamfletlər, kitablar.
Maqnitofon yazıları, disklər.

(Azərbaycanda milli-azadlıq hərəkatında zorsuz mübarizənin bu formalarından geniş istifadə olunmuşdu. 1988-ci ilin Noyabr mitinqlərində Meydana gətirilmiş Demokratik Cümhuriyyətin üç rəngli bayrağı, AXC-nin simvoluna çevrilmiş Koroğlu operasının uvertürası bu deyilənlərə örnəkdir).

*3. Qrup şəklində aksiyalar:*

Deputasiya.
Məzhəkəli mükafatlandırmalar.
Piketlər.
Psevdoseçkilər.

*4. Simvolik ictimai aksiyalar:*

Bayraqların asılması, simvolik boyalarda nəsnələrdən (əşyalardan) istifadə.
Simvolların taxılması, gəzdirilməsi.
Dualar və ayinlər.
Simvolik nəsnələrin əldən-ələ gəzməsi.
Etiraz göstəricisi olaraq soyunma.
Simvolik od yandırmaları.
Portretlərin qoyulması.
Yeni küçə işarələrinin, yeni küçə adlarının qoyulması.
Etiraz göstəricisi olaraq şəkillər çəkilməsi.
Simvolik səslərin çıxarılması (fit, hoydu-hoydu və s.).
Torpaqların simvolik şəkildə azad edilməsi.

HİKMƏT HACIZADƏNİN
Arxiv
2025
KİTABXANASINDAN

(Bu simvolların, aksiyaların hamısından Azərbaycanda istifadə olunmayıb. Olunanlar isə bunlardır: 1990-cı il 20 yanvar faciəsindən sonra Bakıda evlərdən, eyvanlardan qara bayraqlar asılmışdı. Bu faciə ilə bağlı tutulub Moskvaya aparılmış Etibar Məmmədovun həbsinə cavab olaraq isə insanlar sinələrində onun şəklini gəzdirirdilər. Noyabr mitinqlərində keçmiş Lenin meydanına qeyri-rəsmi olaraq Azadlıq meydanı deyilməsi də simvolik aksiyalardan idi.

20 Yanvar faciəsindən sonra Azərbaycan kommunistlərinin kütləvi olaraq partiya biletlərini yandırması simvolik tonqal, simvolik yandırma aksiyalarına uyğun gəlir).

Torpaqların simvolik azad olmasını örnək kimi Naxçıvan cəbhəçilərini 1989-cu ildə İranla Azərbaycan SSR-nin arasındakı sərhəd dirəklərini, məftillərinin dağıtmaq aksiyalarını göstərmək olar.

*5. Teatr və musiqi dilində:*

Oxular.
Yumorsitik parodiyalar.

*6. Yürüşlər:*

Marşlar, Göstərilər (paradlar).
Dini prosessiyalar.
Ziyarətlər.
Avtokalonlar.

(Azərbaycanda Sovet dövründə ilk dəfə 1988-ci il Fevralın 19-da kommunist hakimiyyətinə qarşı tələbələrin yürüşü baş vermişdi.)

*7. Ölənlərin yad edilməsi:*

Siyasi məna qazanmış matəmlər.
Simvolik qəbrə yola salmalar.
Nümayişkaranə qəbirdə basdırmalar.
Məzar yerlərində sitayişlər. (Azərbaycanda 20 Yanvar şəhidlərinin məzara tapşırılma mərasimi bu tipdən ilk azman aksiya oldu).

*8. İctimai toplantılar:*

Etiraz etmək və ya kimlərəsə dayaq olmaq üçün toplantılar.
Etiraz mitinqləri. (Azərbaycanda kommunist hakimiyyətinə qarşı ilk mitinq 1988-ci il Fevralın 19-da tələbələrin yürüşündən sonra baş vermişdi).

B. ƏMƏKDAŞSIZLIQ

*1. Çıxıb getmək, imtina etmək:*

Nümayişkaranə çıxıb getmə.
Dinməzlik.
Şərəf mükafatlarını almamaq və ya qaytarmaq.
Arxasını çevirmək. (Rumıniyanın kommunist rəhbəri Çauşeskonun süqutu o, çıxış edəndə adamların arxasını çevirməsindən başladı)

*2. Əməkdaşlığa «yox» demək:*

Dindirməmək.
Dini ibadəti dayandırmaq.

*3. İctimai olaylarda, iş yerindəki mərasimlərdə iştirakdan imtina etmək:*

İctimai və idman fəaliyyətini dayandırmaq.
İctimai olayı boykot etmək.
Tələbə tətilləri.
İctimai qurumda üzvülüyü dayandırmaq.

(1988-ci ildə Rəsul Həmzətov Azərbaycanda separatçı erməni siyasətinin məqsədlərinə uyğun çıxış edəndə Hikmət Hacızadə buna etiraz edən teksti minəcən nüsxədə yaymağa başladı. Tekstdə Həmzətovun kitablarını özünə qaytarmaq çağırışı vardı və bunun üçün də həmin şairin ünvanı verilmişdi. Çağırış nəticəsində Həmzətovun ünvanına minlərlə nüsxə öz kitabı gəldi.

Bu hadisə Tarixdəki başqa bir aksiyanın analoqu idi. Norveç yazıçısı, Nobel mükafatı laureatı Knut Qamsun Hitler hakimiyyətə gələndə onu alqışlamış və hətta Berlinə fürerin görüşünə getmişdi. Müharibə qurtarandan sonra bütün Avropadan adamlar etiraz olaraq həmin yazıçının kitablarını ona göndərməyə başladılar).

Satış üçün nəzərdə tutulmayıb

*4. Sosial sistemdən qırağa çəkilmək:*

Kütləvi şəkildə evdən çıxmamaq.
Əməkdaşlıq etməkdən şəxsən imtina.
Etiraz olaraq mühacirət etmək.

*5. İqtisadi əməkdaşlıqdan imtina:*

Etiraz olaraq işə çıxmamaq.
İş tempinin aşağı salınması.
Bütün iqtisadi fəaliyyəti dayandırmaq. (Azərbaycanda ilk dəfə 1988-ci il Noyabrın 23-də Xəlil Rzanın çağırışı ilə evdən çıxmamaq aksiyası yayıldı, bütün Azərbaycan üzrə ilk tətil başlandı).

C. HANSI İŞƏSƏ ZORSUZ, DİNC QARIŞMALAR.

*1. Psixoloji təsirlərlə işə qarışmaq:*

Aclıq.
Stixiyanın qucağına atılmaq (yanğına, dənizə və s.)
«Tərs məhkəmə» (ittihamçıların özünü ittiham edən simvolik məhkəmə).
Zorsuz yolla opponenti üzmək.

(Azərbaycanda Sovet çağında ilk aclıq aksiyası 1988-ci il Noyabrın 20-də olub. Fərəməz Allahverdiyev, Cəmil Əliyev, Rafəddin Nuriyev, Elşən Quliyev və daha üç nəfər bu aksiyanın iştirakçıları olublar).

*2. Sosial planda işə qarışma:*

Yeni sosial səhmana salmaq.
Yolların bağlanması.
Durmadan çıxış etmək.
Küçələrdə tamaşalar yapmaq.
Alternativ sosial institutlar yaratmaq.

*3. Siyasi planda işlərə qarışmaq:*

Gizli agentlərin ifşası.
Türməyə düşməyə can atmaq.
Paralel parlamentin yaradılması. (Azərbaycanla bağlı zorsuz aksiyalar haqqında faktların çoxunu bu kitabdan götürmüşük: Ədalət Tahirzadə. Meydan: 4 il 4 ay. 1-2-ci cildlər. B.,1997).

* * *
.

Satış üçün nəzərdə tutulmayıb